**Elçin Mehman oğlu ABDULƏZİZOV**
Sumqayıt Dövlət Universitetinin doktorantı
E-mail: elçin.abdulazizov@gmail.com

# QEYRİ-NEFT EMALI SƏNAYESİ SAHƏLƏRİNDƏ İNVESTİSİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ

**Xülasə**

Məqalədə emal sənayesində investisiyanın - mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq və başqa fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən və intellektual sərvətlərdən ibarət olduğu nəzərə çatdırılmışdır. İnvestisiya mühitini formalaşdıran amillərin məcmu təsirinin konkret aspektlərdə qiymətləndirilməsi məsələsinə münasibət bildirilmişdir.

Hesab edilmişdir ki, sənaye müəssisələrində istehsalın innovativliyinin yüksəldilməsinin əsas hesab olunan amillərdən biri də əqli mülkiyyət hüququnun qorunması mexanizminin təkmilləşdirilməsidir. Həmçinin texnoloji inkişaf mühitinin yaxşılaşdırılması emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasının həlledici amilidir.

Qeyri-neft emalı sənayesi sahələrində investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin vasitə və istiqamətlərinə aid olan amillər sadalanmışdır.

**Açar sözlər**: Sənaye, emal sənayesi, rəqabət qabiliyyəti, səmərəlilik, qeyri-neft sektoru, investisiya, iqtisadiyyat.

**JEL:** L26; L52; L60
**UOT:** 338.36:338.33
**DOI:** https://doi.org/ 10.54414/GXRL9898

## Giriş

Sənayenin mühüm və böyük xüsusi çəkiyə malik olan sahələrindən biri kimi emal sənayesinin rəqabət qabiliyyətinin artırılması onun texnoloji xarakteristikaları ilə, həmçinin burada istehsal və xidmət fəaliyyətinin investisiyalaşması səviyyəsi və səmərəliliyi ilə bilavasitə əlaqədardır.

Son illərdə Azərbaycanda həyata keçirilən uğurlu investisiya siyasəti, islahatların səmərəliliyi baxımından ölkəni dünyada lider mövqeyə çıxarmış, insanların dönmədən artan rifahı təmin edilmişdir. Eyni zamanda, emal sənayesində və onun qeyri-neft sektorunda investisiya proseslərinin konseptual əsaslarının işlənilməsi, əsas kapitala vəsait qoyuuşlarının səmərəliliyinin yüksəldilməsinin iqtisadi, sosial və digər aspektlərinin lazımi səviyyədə araşdırılması müasir şəraitdə aktuallıq kəb edir.

Azərbaycanda sənaye zonaları və məhəllələrinin formalaşması şəraitində emal sənayesi müəssisələrinin innovasiyalı inkişafı imkanlarının əsas kapitala investisiyaların səmərəliliyi baxımından qiymətləndirilməsi məsələləri də mühüm əhəmiyyət kəsb edir, Ona görə də emal sənayesinin investisiya cəlbediciliyinin reallaşdırılması vasitələrinin müəyyənləşdirilməsi kimi məsələlər öz həllini gözləyir.

Sənayenin rolu hazırkı dövrdə insan həyatının bütün sahələrini əhatə etmişdir. Sənayedə istehsal-kommersiya fəaliyyətinin təhlilinin keyfiyyəti və proqnozların etibarlılığı, aşağıdakı amillərdən asılıdır:

## Əsas mətn

İnvestisya proseslərinin xarakteristikaları; onların kəmiyyətcə ifadə olunmasındakı dəqiqlik; innovasiyalı inkişaf şəraitində onların sistem əmələ gətirmə qabiliyyəti və s.

İnvestisiyanın mahiyyətinə dair fərqli mövqeləri müqayisəli təhlil etmək məqsədəuyğundur. İnvestisiyanın mahiyyətinə dair kifayət qədər fərqli mövqelərin sayı çoxdur və onların, hətta ən mühüm əlamətlər üzrə müqayisə etmək bir qədər çətindir.

Pul vəsaitinin, maliyyə alətinin, yaxud digər qiymətlilərin istehsala və ya müxtəlif biznes sahəsinə yönəldilməsi investisiya hesab olunur (1, s. 155). Belə olduqda, investisiyalaşdırılan bu

vә ya digәr prosesin mahiyyәtinin növbәti mәrhәlәdә açıqlanması nәzәrdә tutulur.

İnvestisiya öz ölkәsindә, yaxud xaricdә müxtәlif sahәlәrdәki müәssisәlәrә, maliyyә, sosial - iqtisadi proqramlara, innovasiya layihәlәrinә kapitalın, uzunmüddәtli qoyuluşudur (2, s.378 ).

İnvestisiya anlayışına yanaşma kimi qәbul edilmәlidir ki, investisiya - mәnfәәt әldә etmәk mәqsәdi ilә sahibkarlıq vә başqa fәaliyyәt növlәri obyektlәrinә qoyulan maliyyә vәsaitindәn vә intellektual sәrvәtlәrdәn ibarәtdir. Bu cürә vәsait vә sәrvәtlәrә pul vәsaiti, mәqsәdli bank әmanәtlәri, kreditlәr, paylar, sәhmlәr, daşınar vә daşınmaz әmlak, binalardan, qurğulardan, avadanlıqdan istifadә hüquqları, habelә müәlliflik hüququndan irәli gәlәn vә başqa әmlak hüquqları; başqa sәrvәtlәr (3, maddә 1).

Nәzәrә almaq lazımdır ki, milli iqtisadiyyatın hәr hansı sahәsinә yönәldilәn investisiyaların sәmәrәliliyi müxtәlif sәviyyәli amillәrin tәsiri altında formalaşır. Fikrimizcә, innovasiya fәaliyyәtinә "insan kollektivinin yeni elmi biliklәr, ideyalar, kәşflәr vә ixtiralar, elәcә dә mövcud elmi texnologiyaların tәtbiqi әsasında innovasiyaların tam hәcmdә ictimai reallaşdırılmasına yönәldilmiş sistemli fәaliyyәt növü" (4, s.17) kimi yanaşma mәqsәdәmüvafiqdir.

Sәnaye müәssisәlәrindә innovasiyalı istehsal fәaliyyәti, ilkin yanaşmada risk ehtimalını, әhәmiyyәtli dәrәcәdә yüksәldir. Bu müәssisәlәrdә nnovasiya fәaliyyәtinin yüksәk rәqabәt qabiliyyәtinin әldә olunması kimi mәsәlәlәrin son vaxtlar aktuallaşması nәticәsindә investisiyaya olan tәlәbatın çoxalması sistemlәrinin mövcud sәmәrәliliyi arasındakı fәrqin azaldılması imkanlarına diqqәti cәlb edir.

Bu fәrq, haqqında danışılan sistemә "olan aşağıdakı amillәrin tәsirinin nәticәsidir:

- resursların qeyri-optimal paylanması;
- iqtisadi stimulların mükәmmәl olmaması;
- qәbul edilәn qәrarların yerinә yetirilmә keyfiyyәtinin qәnaәtbәxş olmaması;
- kapital qoyuluşlarının süni şәkildә şişirdilmәsi vә s." (5, s.24).

Sәnaye müәssisәlәrindә innovasiyalı istehsal fәaliyyәtinin sәmәrәliliyi, hәmin fәaliyyәtә yönәldilәn investisiyaların maliyyәlәşdirilmәsi vә kreditlәşdirilmәsinә dövlәt dәstәyi sisteminin sәmәrәliliyi ilә bilavasitә әlaqәdardır.

Haqqında danışılan tәsnifat, müәyyәn mәnada şәrti olub, investisiya mühitini formalaşdıran amillәrin mәcmu tәsirinin konkret aspektlәrdә qiymәtlәndirilmәsi mәsәlәsinә gәtirilmәsi halında, bu vә ya digәr dәrәcәdә mәqbul hesab edilә bilәr.

Sәnaye müәssisәlәrindә istehsalın innovativliyinin yüksәldilmәsinin әsas hesab olunan amillәrdәn biri dә әqli mülkiyyә hüququnun qorunması mexanizminin tәkmillәşdirilmәsi hesab edilir. Qeyd olunan mexanizmin tәkmillәşdirilmәsindә ilk addım, tәbii ki, müvafiq normativ-hüquqi bazanın möhkәmlәndirilmәsi göstәrilә bilәr.

Qeyd etmәk lazımdır ki, sәnaye müәssisәlәrindә istehsalın texniki-texnoloji tәminatının yaxşılaşdırılması investisiya cәlbediciliyinin yüksәldilmәsinin mühüm amildir. İstehsalın innovativliyinin yüksәldilmәsindә modernlәşdirmәnin rolu böyükdür.

İnkişaf etmiş ölkәlәrin tәcrübәsi investisiya mühitinin monitorinqi üzrә milli sisteminin formalaşdırılmasının mühüm müsbәt nәticәlәr verdiyini söylәmәyә әsas verir. Ölkәdә davamlı makroiqtisadi sabitliyin tәmin edilmәsi, ali dövlәt rәhbәrliyi sәviyyәsindә nümayiş etdirilәn siyasi iradә, hәrtәrәfli şәkildә әsaslandırılmış inkişaf strategiyasının vә onun hәyata keçirilmәsi istiqamәtindә atılan sistemli addımların mәcmu sәmәrәliliyi sayәsindә mümkün olmuşdur. Hәyata keçirilәn iqtisadi vә institusional xarakterli islahatların sәmәrәliliyi vә müvafiq investisiya tәminatının dinamik vә dayanıqlı inkişafa adekvatlığı tәmin olunmuşdur. Azәrbaycan borc alan ölkәdәn, borc verәn ölkәyә çevrilmişdir. Bu uğurların әldә olunmasında uğurlu investisiya siyasәtinin dә rolu az olmamışdır.

İnvestisiya prosesinin müәssisә sәviyyәsindә tәnzimlәnmәsi imkanları sahәnin kreditlәşdirilmәsi vәziyyәtindәn xeyli dәrәcәdә asılıdır. Aşağıdakı fikirlә razılaşmaq olar ki, "sәrt vergi siyasәti vә baha kreditlәr bir çox istehsalçıları kapital qoymaq stimullarından mәhrum etmişdir" (7).

Aparılan geniş miqyaslı araşdırmalar, ölkәnin resurs potensialı vә emal sәnayesinin qeyri-neft sahәlәrinin inkişafı arasında gözlәnilәn mütәnasibliyin get-gedә daha da zәiflәmәsini әks etdirәn meyillәri aşkar etmişdir. Odur ki,

sahə müəssisələrində istehsal fəaliyyətinin parametrlərinin tənzimlənməsinin müvafiq təcrübəsinin, qiymətləndirilməsi məqsədəuyğun hesab edilir.

Bütövlükdə ölkə sənayesində əsas kapitala yönələn investisiyalardan istifadənin səmərəliliyinin artması perspektivləri tamamilə realdır. Ölkənin emal sənayesi müəssisələrinin sayında tərəddüdlər baş vermişdir. Sənaye məhsulları bazarında rəqabətin kəskinləşdiyi və sənayenin bu sahəsində özəl bölmənin artan fəallığı şəraitində bu gözlənilən haldır.

Ona görə də emal sənayesi məhsulları bazarında, bir çox hallarda çoxölçülü diferensiallaşması amilinə xüsusi diqqət yetirilir. "Bazarda məhsulun inhisarçı rəqabətliliyi reklamın intensivliyinə, alıcıya yaxınlığına, satışdan sonrakı xidmət şərtlərinə (malların uzunmüddətli istifadəsi üçün) görə diferensiallaşa bilər. Belə olduqda firmalar bu bazarda özünəməxsus rəqabət qiymətlərinə görə deyil, məhsulun çoxölçülü diferensiallaşmasına çalışırlar" (6, s.159).

Beləliklə, investisiyadan əldə edilən səmərə, şərhə xüsusi ehtiyacı olan məcmu kəmiyyətdir. Hazırda investisiyalardan istifadə səmərəliliyinə münasibətdə fərqlər, əsasən reprezentativlik və əhatə dairəsinin dinamikası əlamətlərindən hansına üstünlük verilməsi ilə şərtlənir. Sənaye sahələrində investisiyalardan istifadə səmərəliliyinin qiymətləndirilməsi üçün meyarlar qismində mütərəqqi texnologiyaların tətbiqi, miqyas effekti, xərclərin azaldılması, istehsal və satış risklərinin aşağı salınması tövsiyə edilə bilər.

Texnoloji inkişaf mühitinin yaxşılaşdırılması emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasının həlledici amilidir. Belə ki, innovasiyalı fəaliyyət arealı genişləndikcə, sənaye məhsullarının həyat tsikli qısalır və ənənəvi istehsalın dinamik dəyişən texnoloji mühitin tələblərinə çevik reaksiya vermək imkanları daha da məhdudlaşır. Emal sənayesi müəssisələrində innovasiyalı inkişafa investisiyalar istehsalın şaxələndirilməsi, resurs və enerjiqoruyucu sənaye texnologiyalarının fəal və geniş arealda tətbiqi, xammal əsaslı olmayan ixracyönlü istehsalın modernləşdirməsi, elmtutumlu və yüksək texnoloji sahələrə qeyri-dövlət investisiyalarının stimullaşdırılması, informasiya-kommunikasiya texnologiyalarından istifadə, insan kapitalının gücləndirilməsi kimi məsələlərin həllinə yönəldilməlidir.

Azərbaycanın qeyri-neft emal sənayesinin daha böyük xüsusi çəkiyə malik olan sahələrinə aid müəssisələrdə əsas kapitala yönəldilmiş investisiyalardan istifadənin struktur dinamikasında fərqli meyillər müşahidə olunsa da azalma daha xarakterikdir. Qeyri-neft emal sənayesində investisya güzəştləri investisiya fəallığını artırsa da ölkənin qeyri-neft emal sənayesinin daha böyük xüsusi çəkiyə malik sahələrində xarici investisiyalardan istifadə səviyyəsi, heç də həmişə arzu olunan səviyyədə deyildir.

**Nəticə**

Qeyri-neft emalı sənayesi sahələrində investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin vasitə və istiqamətlərinə aşağıdakılar aid edilməlidir: sənayenin bu sahəsində inkişafın yerli potensialdan istifadə dərəcəsinin yüksəldilməsi, investisiya infrastrukturunun adekvat inkişafının tempi və miqyasının əldə edilməsi perspektivlərinin etibarlı proqnozlaşdırılması, müəssisələrdə şaquli və üfüqi inteqrasiyanın çoxssenarili imitasiya modelləşdirilməsi vasitəsi ilə qiymətləndirilərək nəzərə alınması, investisiya fəallığının təşviqi mexanizminin təkmilləşdirilməsi, texnoloji və digər xarakterli innovasiyaların fəal tətbiqini nəzərdə tutan müştərək fəaliyyətin iqtisadi və hüquqi bazasının möhkəmləndirilməsi, investisiyaların bank kreditləşdirilməsi sisteminin, bankların bu fəaliyyətinin stimullaşdırılması mexanizminin, o cümlədən, girov mexanizminin, həmin fəaliyyətə vergi güzəştləri sisteminin təkmilləşdirlməsi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Ağayev A. Maliyyə: terminləri lüğəti. Bakı, 2005, 421 s.

2.İzahlı iqtisadi terminlər I hissə. Bakı, Nurlar, 2005, 536 s.

3. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 1995-ci il. № 952

4. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, "Elm", 2009, 416 s.

5. Əliyev Ə.Q, Şahverdiyeva R.O. Innovasiya strukturlarının fəaliyyət səmərəliliyinin kompleks qiymətləndirilməsinin elmi-metodoloji əsasları. AMEA Xəbərlər, Elm və innovasiya, 2011, №1 (5), s.23-32

6. Tağıyev A.H. Bazar iqtisadiyyatının əsasları. Bakı, 2000,342 s.

7. Эмир-Ильясова Э.И. Азербайджан в системе международных экономических отношений. Баку, “Элм”, 2000-183с.

8. www.economy.gov. az

**Эльчин Мехман оглы АБДУЛАЗИЗОВ**

## РЕГУЛИРОВАНИЕ ИНВЕСТИЦИОННЫХ ПРОЦЕССОВ В СФЕРАХ НЕНЕФТЕПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ

**Рэзюмэ:** В статье указано, что инвестиции в обрабатывающую промышленность состоят из финансовых ресурсов и интеллектуальных активов, вкладываемых в предпринимательскую и другие виды деятельности с целью получения прибыли. Высказан вопрос оценки совокупного эффекта факторов, формирующих инвестиционную среду, в конкретных аспектах.

Посчитали, что одним из основных факторов повышения инновационности производства на промышленных предприятиях является совершенствование механизма защиты прав интеллектуальной собственности. Также улучшение среды технологического развития является решающим фактором повышения конкурентоспособности предприятий обрабатывающей промышленности.

Перечислены факторы, связанные со средствами и направлениями совершенствования системы регулирования инвестиционных процессов в сферах ненефтеперерабатывающей промышленности.

**Ключевые слова**: Промышленность, обрабатывающая промышленность, конкурентоспособность, эффективность, ненефтяной сектор, инвестиции, экономика,

**Elchin Mehman ABDULAZIZOV**

## REGULATİON OF İNVESTMENT PROCESSES İN AREAS OF NON-OİL REFİNİNG İNDUSTRY

### Summary

In the article, the investment in the processing industry consists of financial resources and intellectual assets invested in entrepreneurial and other types of activities with the aim of making a profit. The issue of evaluating the cumulative effect of the factors forming the investment environment in specific aspects has been expressed.

It was considered that one of the main factors of increasing the innovativeness of production in industrial enterprises is the improvement of the intellectual property right protection mechanism. Also, improving the technological development environment is a decisive factor in increasing the competitiveness of processing industry enterprises.

The factors related to the means and directions of improvement of the system of regulation of investment processes in the fields of non-oil processing industry are listed.

**Key words**: Industry, processing industry, competitiveness, efficiency, non-oil sector, investment, economy.